# Ümid qapısı və mərhəmət ünvanı

## *Ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın fəaliyyətində idmanın inkişafı xüsusi yer tutur*

**Bu gün Müstəqil Azərbaycanın uğurlarının təməlində ulu öndərimiz Heydər Əliyevin müdrik siyasi kursu, strateji proqramlar, konsepsiyalar və islahatlar dayanır. Alternativi olmayan bu siyasi kurs Azərbaycanın çox qısa bir zaman kəsiyində inkişaf yoluna çıxmasına səbəb olub. Dahi rəhbərimizin ideyaları Azərbaycanın və regionumuzun lideri Prezident İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilir. Azərbaycanın sürətli inkişafında, dünyada nüfuzunun durmadan artmasında Heydər Əliyev Fondunun da önəmli rolu var. Ölkəmizin ictimai-siyasi həyatında Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın fəaliyyəti olduqca mühüm və əhəmiyyətlidir.**



Məlum olduğu kimi, bu ilin fevral ayının 21-i dövlətimiz və xalqımız üçün xüsusi əhəmiyyət kəsb edən, siyasi idarəçilik tariximizdə tamamilə yeni olan bir faktla yaddaşlara yazıldı. Həmin gün biz idarəetmə strukturunda qabaqcıl Avropa ölkələrinin təcrübəsinə əsaslanan bir yeniliyin şahidi olduq. Prezident İlham Əliyevin sərəncamı ilə Mehriban Əliyeva Birinci vitse-prezident təyin olundu. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının yüksək səviyyədə keçən iclasında dövlətimizin başçısı bildirib ki, Mehriban xanımın çoxşaxəli və eyni zamanda uğurlu fəaliyyəti bu qərarı qəbul etməyimdə əsas rol oynamışdır. Mehriban Əliyeva çox peşəkar, bilikli, təcrübəli, prinsipial, çox xeyirxah bir insandır. Azərbaycan xalqı ona böyük rəğbət və sevgi ilə yanaşır. Prezident İlham Əliyev demişdir: **“Heydər Əliyev Fondunun mədəniyyətlə, incəsənətlə bağlı layihələri bizim mənəvi, tarixi, mədəni irsimizin qorunması işində əvəzolunmaz rol oynamışdır. Bizim milli sərvətimiz olan muğam sənətinin yenidən inkişafı və beynəlxalq arenaya çıxarılması məhz Heydər Əliyev Fondunun və Mehriban Əliyevanın şəxsi təşəbbüsü nəticəsində mümkün olmuşdur. Azərbaycanda keçirilən muğam müsabiqələri artıq həyatımızın ayrılmaz hissəsinə çevrilmişdir. Bu, sadəcə olaraq sənət növü deyil, bu, bizim mədəni sərvətimizdir. Gənc nəslin tərbiyə olunmasında milli-mənəvi dəyərlər, ənənələr xüsusi rol oynayır. Bu baxımdan belə təşəbbüslər çox böyük ictimai məna daşıyır. Eyni zamanda, dünya miqyasında muğamın məhz Azərbaycan sənəti kimi təqdim olunmasında Heydər Əliyev Fondunun çox böyük rolu olmuşdur. Azərbaycanı dünyada tanıtmaq üçün müxtəlif təqdimatlar, sərgilər, tədbirlər keçirilmişdir. Çoxsaylı tədbirlər nəticəsində dünya ictimaiyyəti ölkəmizi daha yaxından tanımağa, öyrənməyə, görməyə başlamışdır ki, Azərbaycan müasir, dinamik inkişaf edən ölkədir. Eyni zamanda, Azərbaycan xalqı öz tarixi köklərinə çox bağlı olan xalqdır.**

**Mehriban Əliyeva Milli Olimpiya Komitəsinin və İcraiyyə Komitəsinin üzvüdür və onun bu fəaliyyəti də təqdirəlayiqdir. Ölkəmizdə keçirilmiş bir neçə qlobal tədbirin təşkilində Mehriban Əliyeva xüsusi rol oynamışdır. 2012-ci ildə “Eurovision” mahnı müsabiqəsinin yüksək səviyyədə keçirilməsi məhz onun təşkilatçılığı ilə mümkün olmuşdur. 2015-ci ildə birinci Avropa Oyunlarının yüksək səviyyədə keçirilməsi də Təşkilat Komitəsinin və onun rəhbəri Mehriban Əliyevanın fəaliyyəti nəticəsində mümkün olmuşdur. İki il yarım ərzində bu Oyunları Yay Olimpiya Oyunları səviyyəsində keçirmək, əlbəttə ki, böyük nailiyyət idi. Birinci Avropa Oyunları tarixdə ən yüksək səviyyədə keçirilmiş mötəbər idman tədbiri kimi qalacaqdır”.**

Bu gün Azərbaycanda və dünyada Mehriban xanım Əliyeva rəsmi Bakının prioritet kimi müəyyənləşdirdiyi siyasi, iqtisadi və humanitar xətlə bağlı ardıcıl və çoxşaxəli fəaliyyət göstərən ictimai-siyasi xadim kimi tanınır. Təhlilçilərin də qeyd etdiyi kimi, Mehriban xanım Əliyeva Azərbaycanın tarixinə və mədəniyyətinə dərindən bələd olan, onun maddi abidələrini, mənəvi sərvətlərini qorumağı bacaran, Azərbaycanın musiqi həyatından başlamış siyasi həyatınadək bütün sahələrdə imzası görünən, ölkəmizi beynəlxalq miqyasda uğurla təmsil edən dünyada nüfuz və hörmətə malik olan ictimai-siyasi xadimdir. Mehriban xanım Əliyevanın ictimai-siyasi fəaliyyətinin coğrafiyası Pakistandan Vatikana və Avropa İttifaqı ölkələrinə qədər uzanır.

Mehriban xanım Əliyeva bu ali vəzifəyə layiq olduğunu və gələcəkdə də bu məsuliyyətli vəzifəni yüksək bacarıqla icra edə biləcəyini bu günə qədər gördüyü işlərlə sübuta yetirib. Mehriban xanım Əliyeva həm ölkəmizin birinci xanımı, həm Heydər Əliyev Fondunun prezidenti kimi uğurlu fəaliyyəti ilə xalqımızın böyük etimadını qazanıb, daim insanlarla ünsiyyətdə olub, onları narahat edən məsələlərin həlli ilə bağlı müxtəlif tədbirlərin həyata keçirilməsi təşəbbüsü ilə çıxış edib.

Heydər Əliyev Fondunu 13 il ərzində dünyanın ən nüfuzlu ictimai təşkilatlarından biri kimi inkişaf etdirməyə nail olan Mehriban xanım Əliyeva ümummilli liderin ideyalarının Azərbaycanda layiqincə yaşadılmasını təmin edib, həm də onun beynəlxalq miqyasda təşviqatını böyük peşəkarlıqla həyata keçirib. Azərbaycan xalqının adət-ənənələrinin təbliğindən tutmuş, xalq incəsənət nümunələrinə kimi xarici ölkələrdə bilavasitə Mehriban xanımın rəhbərliyi ilə sərgilər həyata keçirilib. Əgər bu gün xarici ölkələrdə muğamımızı sevə-sevə dinləyirlərsə, bu da Mehriban xanımın Azərbaycan muğamının dünyaya çatdırılmasında oynadığı rolun nəticəsidir. Bir sözlə, Azərbaycan incilərini, Azərbaycan sərvətlərini dünya sərvətlərinin bir hissəsi olaraq beynəlxalq ictimaiyyətə təqdim edir. Təsadüfi deyil ki, Azərbaycanın bir sıra mədəni nümunələri UNESCO-nun maddi-mədəni irs siyahısına daxil edilib. Bununla da, bir daha Azərbaycanın mədəni irsini necə qorumağın, necə inkişaf etdirməyin də nümunəsini Mehriban xanım sərgiləyir. Beynəlxalq aləmdə ziddiyyətlərin, xaosun hökm sürdüyü bir şəraitdə bu qədər yüksək səviyyədə təşkilatçılığı Mehriban xanım mədəniyyətlərin bir-birini inkar etməsini deyil, bir-birinə yaxınlaşmasını təmin etmiş olur.

2012-ci ildə “Eurovision” mahnı müsabiqəsinin, 2015-ci ildə ilk Avropa Oyunlarının paytaxtımızda ən yüksək standartlara uyğun baş tutmasının Azərbaycanın dünyadakı nüfuzunun artmasına önəmli töhfələr verməsi bir daha Mehriban xanımın təşkilatçılıq bacarığının təsdiqi idi. Təsadüfi deyil ki, bu il ölkəmizdə keçirilmiş IV İslam Həmrəyliyi Oyunlarının təşkili də Mehriban xanım Əliyevaya tapşırılmışdı. Mehriban xanım Əliyeva Gimnastika Federasiyasının prezidenti, Mədəniyyət Fondunun rəhbəri kimi də uğurlu idarəçilik və təşkilatçılıq nümunəsi yaradıb.

Mehriban xanım Əliyevanın təşəbbüsü ilə təhsil, idman, mədəniyyət sahəsində və ümumiyyətlə, dünyada Azərbaycanın müsbət imicinin formalaşdırılması istiqamətində həyata keçirilən tədbirlər ölkə ictimaiyyəti tərəfindən də yüksək qiymətləndirilir. İdmandan təhsilə qədər, mədəniyyətdən səhiyyəyə qədər, xeyriyyəçilikdən multikulturalizm təşəbbüskarlığına qədər əhatəli fəaliyyət potensialına malik olan Mehriban xanım Əliyevanın ölkəmizin bütün ictimai, siyasi, mədəni dairələri tərəfindən işgüzar və görkəmli Azərbaycan qadını kimi tanınması cəmiyyətimizdə Azərbaycan qadınına verilən yüksək dəyərin ifadəsidir. Bu gün Azərbaycan dünyada idman məkanı kimi tanınır. İdmanın inkişafı məsələsi də Mehriban Əliyevanın fəaliyyətində xüsusi yer tutur. Və bu sahəyə xüsusi önəm verilir. Məlum olduğu kimi, 2004-cü il 28 dekabrda Mehriban Əliyeva Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin IV Baş Məclisində MOK-un İcraiyyə Komitəsinə üzv seçilmişdir.

2012-ci il 8 dekabrda Avropa Olimpiya Komitəsi Baş Assambleyası 2015-ci ildə I Avropa Oyunlarının Bakıda keçirilməsi haqqında qərar qəbul etdi. Birinci Avropa Oyunlarını yüksək səviyyədə keçirmək məqsədi ilə 2013-cü il yanvarın 17-də Təşkilat Komitəsi yaradıldı və onun sədri Mehriban Əliyeva təyin olundu. 21 yanvar 2016-cı ildə, “Bakı-2015” birinci Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyevaya Avropada idmanın inkişafında göstərdiyi xüsusi xidmətlərə görə Avropa Olimpiya Komitələrinin İcraiyyə Komitəsinin qərarı ilə Avropa Olimpiya Komitələrinin ən yüksək mükafatı olan Ali Orden təqdim edilib.

Azərbaycanın Birinci vitse-prezidenti, ölkəmizin birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri Mehriban Əliyeva Azərbaycanı layiqincə təmsil edən, ölkəmizdə və dünyada xeyriyyəçi, humanist fəaliyyəti ilə seçilən, həmçinin, mədəniyyətə, idmana qayğı ilə yanaşan, elm, təhsil, səhiyyə sahələrində respublikada və beynəlxalq miqyasda böyük işlər görən bir ictimai-siyasi xadim kimi tanınır. Azərbaycanın birinci xanımının ali məramlı fəaliyyəti bəhs etdiyimiz ayrı-ayrı sahələrin inkişafında müstəsna rol oynamaqla ölkəmizin tərəqqisinə mühüm töhfələr verir.

Dövlətin qayğısı və diqqəti nəticəsində özünün genişmiqyaslı inkişaf mərhələsinə qədəm qoymuş idman sahəsində əldə edilmiş uğurların miqyasından hamı xəbərdardır. İdmançılarımızın Dünya və Olimpiya yarışlarında ölkəmizi layiqincə təmsil etmələri dövlətin göstərdiyi güclü dəstək sayəsində mümkün olduğu da hamıya məlumdur. Respublikada inşa edilən və ən müasir avadanlıqla təchiz olunan Olimpiya idman komplekslərinin sayı 40-ı ötmüşdür. Belə vacib prosesə fəal qoşulan Heydər Əliyev Fondu da idmanımızın inkişafına dəstək göstərir, sağlam gəncliyin yetişməsi işinə öz töhfəsini verir. **“İdman sağlamlıq rəmzidir, idman gözəllik rəmzidir, idman milli qürur və milli həmrəylik rəmzidir”,** - deyən Mehriban xanım Əliyeva idmanın cəmiyyətin həyatında oynadığı rolu yüksək qiymətləndirərək, onun həm də birləşdirici gücünün olduğunu vurğulayır. Bundan başqa, bədii gimnastika üzrə 27-ci Dünya Çempionatının, son dəfə 30-cu Avropa Çempionatının ölkəmizdə uğurla keçirilməsi Azərbaycan Bədii Gimnastika Federasiyasının prezidenti kimi Mehriban xanım Əliyevanın bu idman növünün inkişafı ilə yanaşı, Azərbaycan idmanının təbliği istiqamətində də əldə etdiyi çoxsaylı nailiyyətlərdən biridir.

Birinci xanımın idmanın inkişafı və populyarlaşdırılması, eləcə də xalqlararası münasibətlərdə yeni səhifənin açılmasında böyük rol oynayan ilk Avropa Oyunlarının Təşkilat Komitəsinin sədri kimi uğurlu fəaliyyətini də qeyd etmək vacibdir. Avropa Olimpiya Komitəsinin Birinci Avropa Oyunlarının Bakıda keçirilməsi ilə bağlı qəbul etdiyi qərardan sonra ölkəmizdə bu əhəmiyyətli beynəlxalq tədbirə geniş hazırlıq işləri başladı. Qısa müddətdə yeni idman infrastrukturası yaradıldı, mövcudları isə əsaslı şəkildə müasir formada yenidən quruldu.

Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu ümummilli liderimizin ideyalarını böyük əzmlə və sədaqətlə həyata keçirir. Mehriban xanım Əliyevanın ali dəyərlərə söykənən, Azərbaycan xalqı və dövlətinin maraqlarını əks etdirən fəaliyyətindən bəhs edərkən, ilk növbədə, onun rəhbərlik etdiyi Heydər Əliyev Fondunun ölkəmizin inkişafına verdiyi töhfələrə, sərgilədiyi çoxsahəli fəaliyyətə nəzər yetirmək gərəkdir. Mehriban xanım Əliyevanın mədəniyyətimizin inkişafı və təbliği işində əldə etdiyi böyük nəticələr Azərbaycan dövləti tərəfindən də yüksək qiymətləndirilir. Bu yaxınlarda Azərbaycan Prezidenti İlham Əliyevin mədəniyyətin, təhsilin, səhiyyənin və idmanın inkişafında səmərəli fəaliyyətinə, Azərbaycan xalqının mədəni irsinin beynəlxalq miqyasda geniş təbliğinə və ilk Avropa Oyunlarının təşkilində böyük xidmətlərinə görə Mehriban Əliyevanın “Heydər Əliyev” ordeni ilə təltif edilməsi barədə sərəncam imzalamışdır. Mədəni irsimizin böyük nümunələrindən biri sayılan muğamın, aşıq sənətinin və Novruz bayramının UNESCO-nun Bəşəriyyətin Qeyri-Maddi İrsinin, tar sənəti və ifaçılığının isə Qeyri-Maddi Mədəni İrsinin Reprezentativ Siyahısına daxil etməsi də məhz Heydər Əliyev Fondunun həyata keçirdiyi məqsədyönlü və davamlı işin nəticəsində mümkün olmuşdur. Mehriban xanım Əliyevanın “Muğam da, aşıq yaradıcılığı da, milli musiqi alətlərimizin bənzərsiz melodiyaları da bu günə qədər qoruyub saxladığımız və gələcək gün naminə qorumağa borclu olduğumuz irsin yalnız bir hissəsidir. Azərbaycan Mədəniyyətinin Dostları Fondunun fəaliyyəti məhz bu məqsədə yönəldilmişir”. UNESCO-nun xoşməramlı səfiri kimi mənim bütün gələcək fəaliyyətim də bu məqsədə yönələcəkdir” sözləri bir daha təsdiqləyir ki, mədəni irsimizin müdafiəsi işi bundan sonra da uğurla davam etdiriləcək.

Bu gün tam əminliklə deyə bilərik ki, Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu ulu öndərin ideyalarını böyük əzmlə və sədaqətlə həyata keçirir. Fond ölkənin yaradıcı və elmi potensialının artırılmasına kömək etməyi, uşaq müəssisələrinin infrastrukturlarını inkişaf etdirməyi, ekologiya sahəsində mühüm tədqiqatları dəstəkləməyi, sağlam həyat tərzini təbliğ etməyi, Azərbaycan Respublikasının ərazisində və xaricdə aktual mövzulara dair konfrans və seminarlar, eləcə də uşaqların, yaradıcı gənclərin, incəsənət xadimlərinin sərgilərini təşkil etməyi, dini tolerantlığın bərqərar olmasına, vətəndaş cəmiyyəti quruculuğuna, qloballaşan dünyaya inteqrasiya prosesində milli-mənəvi dəyərlərin qorunub saxlanılmasına dəstək verməyi öz fəaliyyətində prioritet məsələlər kimi görür. Bir sözlə, Heydər Əliyev Fondunun fəaliyyəti ölkənin ictimai həyatının bütün sahələrini əhatə edir.

Bu gün Azərbaycanda çox vacib irimiqyaslı beynəlxalq tədbirlər keçirilir və hər bir belə tədbirin təşkili ən yüksək rəylər qazanır. Biz hər bir məsələyə çox məsuliyyətlə yanaşırıq və Azərbaycanın maraqlarını, beynəlxalq imicini üstün tutaraq, ölkəmiz və xalqımız üçün layiqli nailiyyətlər əldə etməyə çalışırıq. Son illər Azərbaycanın paytaxtında bir çox böyük beynəlxalq idman yarışları - həm Avropa, həm də dünya çempionatları keçirilir. Ümumi rəyə görə, bu tədbirlər təşkilati baxımdan çox yüksək səviyyədə hazırlanır və keçirilir. 2015-ci ildə Bakıda birinci Avropa Oyunları böyük uğurla keçirilmişdi. Bu Oyunlar Avropanın Olimpiya tarixində yeni səhifə açmışdı. Bu oyunlarda idmançılarımız 21 qızıl, 15 gümüş, 20 bürünc olmaqla 56 medal qazandılar. Ümumi rəyə görə, Azərbaycan dövləti birinci Avropa Oyunlarını Olimpiya Oyunları səviyyəsində təşkil etmişdir. IV İslam Həmrəyliyi Oyunları da mükəmməl hazırlanmışdır və keçirilmiş Oyunlar kimi tarixdə qaldı. İdmançılarımız 75 qızıl, 50 gümüş, 37 bürüncə sahib olmaqla, ümumilikdə, 162 medal qazanaraq birinci yeri tutdular. Bütün bunlar Azərbaycan idmanının sürətli inkişafından və dövlətin idmana olan diqqət və qayğısından xəbər verir.

İnanırıq ki, nəcib əməlləri ilə xeyirxahlıq və mərhəmət ünvanına çevrilən, eləcə də hər bir azərbaycanlının qürur yeri, fəxri və vüqarı olan Heydər Əliyev Fondunun prezidenti, ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə qarşıya qoyulan yeni zirvələr fəth ediləcək, daim Azərbaycanımızın adı və üçrəngli Bayrağı yüksəklərdə dalğalanacaqdır.

**Ağacan ABİYEV,**
**Azərbaycan Milli Olimpiya Komitəsinin baş katibi, professor, Əməkdar elm xadimi.**